No: 02 2025
http://doi.org/10.64400/ndueej.041
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# AZƏRBAYCANDA ALİ HƏRBİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN İNKİŞAFININ PEDAQOJİ ASPEKTLƏRİ

**p.ü.f.d. Müjkan Məmmədzadə**
https://orcid.org/0000-0001-5693-3748
mujkan@mail.ru

Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutu, Bakı, Azərbaycan.

**mujkan@mail.ru1*; Tel.:( +994) 50 2072672*

**XÜLASƏ**
Azərbaycanda ali hərbi təhsil sistemi milli təhlükəsizlik strategiyasının vacib sütunlarından biridir. Peşəkar, yüksək intellektual hazırlığa malik və strateji düşüncə qabiliyyəti olan zabit kadrların hazırlanması, yalnız texniki və taktiki təlimlərlə deyil, müasir pedaqoji yanaşmalarla qurulan sistemli tədris modeli ilə mümkündür. XX əsrin sonlarından etibarən ölkəmizdə hərbi təhsil sahəsində mühüm islahatlar həyata keçirilmiş, sovet mirası olan mərkəzləşdirilmiş və standartlaşdırılmış sistemdən tədricən milli məzmuna və çevik pedaqoji yanaşmalara keçid baş vermişdir. Bu məqalənin məqsədi Azərbaycanda ali hərbi təhsil müəssisələrinin inkişaf mərhələlərini pedaqoji aspektlərdən təhlil etmək, tədris metodlarının dəyişməsi, kurikulum islahatları və liderlik təlimləri fonunda hərbi təhsilin müasir durumunu qiymətləndirməkdir. Həmçinin NATO və Türkiyə kimi tərəfdaş ölkələrin təcrübəsinin yerli sistemə inteqrasiyası da xüsusi vurğulanır.

**Açar sözlər:** *ali hərbi təhsil, pedaqoji islahatlar, zabit hazırlığı, müasir təlim metodları, NATO standartları*

## Giriş

Azərbaycan tarixində hərbi təhsil mühüm əhəmiyyətə malik olmuş, müxtəlif dövrlərdə ölkənin müdafiə qabiliyyətinin təmin olunmasında vacib rol oynamışdır. Ali hərbi təhsilin təşkili və inkişafı Azərbaycan ordusunun peşəkarlıq səviyyəsinin yüksəldilməsində, milli zabit kadrlarının yetişdirilməsində mühüm mərhələlərdən biri hesab olunur.

Müasir dövrdə dövlətlərin milli təhlükəsizlik konsepsiyaları yalnız texniki silahlanma və müdafiə strategiyalarından ibarət deyil, həm də keyfiyyətli insan kapitalına — yəni yüksək ixtisaslı, etik və strateji düşünmə qabiliyyətinə malik hərbi kadrların hazırlanmasına əsaslanır. Xüsusilə də geosiyasi cəhətdən həssas regionda yerləşən Azərbaycan üçün güclü ordu və onun əsasını təşkil edən effektiv ali hərbi təhsil sistemi həyati əhəmiyyət daşıyır. Bu baxımdan, ali hərbi təhsil müəssisələrinin təşkilatlanması,

inkişaf mərhələləri və tətbiq edilən pedaqoji modellər dövlətin təhlükəsizlik arxitekturasının ayrılmaz tərkib hissəsidir.

Pedaqoji aspekt baxımından ali hərbi təhsil müəssisələrinin inkişafı müxtəlif mərhələlər üzrə fərqli metodoloji yanaşmaları ehtiva etmişdir. Ənənəvi əmrlərə əsaslanan, sərt nizam-intizam mərkəzli tədris sistemindən müasir dövrdə problem əsaslı öyrənmə, simulyasiya texnologiyaları, liderlik bacarıqlarının inkişafı və reflektiv təlim kimi aktiv öyrənmə metodlarına keçid müşahidə olunur. Bu isə təhsilalanların yalnız hərbi biliklərə deyil, eyni zamanda analitik düşüncə, strateji planlama və etik qərarvermə bacarıqlarına yiyələnməsini hədəfləyir.

**Əsas hissə**

Azərbaycan ərazisində təşkil olunmuş ilk hərbi təhsil ocaqları XIX əsrin sonu - XX əsrin əvvəllərinə təsadüf edir. Çar Rusiyası dövründə Zaqafqaziya hərbi məktəblərində azərbaycanlı gənclər də təhsil alırdı. Lakin milli kadrların hazırlanması əsasən yerli təşəbbüs və şəxsi təşəbbüslərlə məhdudlaşırdı.

1918–1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti mövcud olduğu qısa müddət ərzində milli ordu quruculuğuna və zabit kadrlarının hazırlanmasına xüsusi diqqət yetirmişdir. Daha öncə qeyd edilən 1918-ci ildə Gəncədə Cümhuriyyət Hərbi Məktəbinin yaradılması Azərbaycanın hərbi təhsil tarixində mühüm hadisə olmuşdur. Lakin Cümhuriyyətin süqutundan sonra bu proses yarımçıq qalmışdır (1, s. 238).

Sovet hakimiyyəti dövründə Azərbaycan gəncləri əsasən SSRİ-nin müxtəlif şəhərlərində yerləşən ali hərbi məktəblərdə təhsil alırdı. Bakı Ali Birləşmiş Komandirlər Məktəbi (BABKM) bu dövrdə respublikada yeganə ali hərbi təhsil müəssisəsi kimi fəaliyyət göstərmiş və uzun illər ərzində minlərlə zabit hazırlamışdır.

Azərbaycan müstəqillik əldə etdikdən sonra ordu quruculuğu sahəsində geniş islahatlar aparılmış, milli hərbi təhsil sisteminin yaradılması prioritet məsələlərdən birinə çevrilmişdir. 1992-ci ildə Bakı Ali Birləşmiş Komandirlər Məktəbi əsasında Azərbaycan Ali Hərbi Məktəbi təşkil edilmişdir. Bu məktəb ölkənin ilk milli ali hərbi təhsil müəssisəsi kimi müasir Azərbaycan Ordusunun peşəkar zabit kadrları ilə təmin edilməsində mühüm rol oynamışdır (7).

Sonrakı illərdə hərbi təhsil sistemi daha da inkişaf etdirilmiş, müxtəlif ixtisaslar üzrə tədris proqramları genişləndirilmişdir. Prezident İlham Əliyevin ordu quruculuğu sahəsində həyata keçirdiyi siyasət nəticəsində ali hərbi təhsil müəssisələri müasir maddi-texniki baza ilə təmin olunmuş, beynəlxalq standartlara uyğun tədris mühitinin yaradılması istiqamətində mühüm addımlar atılmışdır.

Hazırda Azərbaycanda ali hərbi təhsil sistemi ordu quruculuğunun əsas sütunlarından biri kimi fəaliyyət göstərir. Zabitlərin peşəkar hazırlığı ilə yanaşı, onların vətənpərvərlik ruhunda tərbiyəsi, liderlik keyfiyyətlərinin inkişaf etdirilməsi də prioritet istiqamətlərdəndir. Eyni zamanda, xarici ölkələrin qabaqcıl hərbi təhsil ocaqları ilə əməkdaşlıq genişləndirilir, müasir döyüş taktikaları, yeni texnologiyalar və beynəlxalq təcrübə tədris prosesinə inteqrasiya olunur. Ali hərbi təhsilin qarşısında duran əsas vəzifələrdən biri də ordunun tələbatına uyğun ixtisaslı kadr hazırlığını təmin etmək, zabit heyətinin müasir döyüş şəraitinə uyğun bilik və bacarıqlarla təchiz edilməsidir.

Azərbaycanda ali hərbi təhsilin formalaşması milli dövlətçilik və ordu quruculuğu prosesinin mühüm tərkib hissəsi olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordu quruculuğunda əsas məqsəd milli zabit heyətinin hazırlanması idi. Bu istiqamətdə atılan ilk addımlardan biri 1918-ci ilin iyun ayında Gəncədə türk zabitlərinin köməyi ilə gizirlər üçün hərbi məktəbin açılması olmuşdur. Həmin məktəbə ibtidai təhsildən yuxarı təhsili olan vətəndaşlar qəbul edilirdi və sürətləndirilmiş təlim kurslarının ilk buraxılışı 1918-ci ilin oktyabrında baş tutmuşdur. 1918-ci ilin oktyabrında Daxili İşlər Nazirliyinin təşəbbüsü ilə Bakıda da hərbi məktəbin açılması üçün 50 min manat məbləğində vəsait ayrılmışdır (4, s. 23). 1919-cu ilin noyabr ayından etibarən Gəncədəki gizirlər məktəbi tam hüquqlu hərbi məktəbə çevrilmiş, burada ümumqoşun, artilleriya və mühəndis bölmələrində 250 nəfərədək dinləyici təhsil almışdır. 1920-ci ilin əvvəllərində isə Bakıda yunker məktəbi təşkil edilmişdir. 1919-cu ilin sonlarında isə aviasiya, artilleriya, snayper, pulemyot-qrenad, hərbi dəmir yolu və hərbi-feldşer məktəbləri yaradılmışdır. Lakin milli zabit kadrlarının formalaşdırılması üçün kifayət qədər vaxt lazım idi. Buna görə Azərbaycan hökuməti dövrün tanınmış zabit və mütəxəssislərini xidmətə cəlb etməyə məcbur olmuşdur. Bu dövrdə Azərbaycanda ümumilikdə 300-ə yaxın zabit mövcud idi ki, onların yalnız 30 nəfəri qərargah zabiti idi. 1919-cu ildə general

S.Mehmandarovun təşəbbüsü ilə azərbaycanlı zabitlərin mülki vəzifələrə qəbul edilməməsi haqqında xüsusi qərar qəbul edilmişdir. Sovet hakimiyyəti illərində, xüsusilə 1920-ci ildən sonra, Azərbaycanın milli hərbi kadrlarının inkişafı məqsədli şəkildə məhdudlaşdırılmışdır (6, s. 82-83).

Ümumilikdə hərbi təhsil fəaliyyətində ən uğurlu sahələrdən biri dənizçilik təhsili üzrə olmuş, SSRİ-də və dünyada sayıb seçilən təhsil sistemlərindən biri olmuşdur. Məlumata görə, 1921-ci ilin sentyabrına qədər Xəzər donanmasında 1737 nəfər şəxsi heyət xidmət edirdi ki, onlardan cəmi 69 nəfəri azərbaycanlı idi. Bu heyətin yalnız 10 nəfəri döyüş gəmilərində, 59 nəfəri isə sahil hərbi hissələrində xidmət edirdi. 1930-cu ildən etibarən Sovet hakimiyyəti hərbi-dəniz təhsilinə xüsusi diqqət yetirmişdir. Xəzər dənizçilik məktəbi, ali və orta hərbi-dənizçilik məktəbləri fəaliyyət göstərmişdir (2). 1928–1937-ci illərdə SSRİ-də orta hərbi-dəniz məktəblərinin sayı 7-yə çatdırılmış, 1939-cu ilə qədər isə SSRİ-də 14 ali və orta hərbi-dənizçilik məktəbi fəaliyyət göstərmişdir. Donanma kadrlarının hazırlanmasında Bakı zavodları və neft sənayesi müəssisələrindən gənc kadrlar cəlb edilərək "Göytəpə" hərbi gəmisində təlimlər keçirilmişdir.

1936–1937-ci illərdə Bakıda yaradılmış "Bakı Uşaq Dəniz Donanmasının Müvəqqəti Əsasnaməsi" əsasında uşaqlar üçün xüsusi təlim kursları təşkil olunmuşdur. Uşaq Dəniz Donanmasının kontingenti ümumilikdə 2000 nəfərdən ibarət idi. Tədris-tərbiyə heyətinin sayı isə 200 nəfərdən çox olmamışdır. 1939-cu ildə Uşaq Dəniz Donanmasında 147 nəfər "Gənc Dənizçi", 3374 nəfər üzgüçülük, 2735 nəfər avarçəkən, 15 nəfər isə "Əməyə və müdafiəyə hazıram" nişanları üzrə hazırlanmışdır. 1940-cı ildə Bakıda 7 saylı xüsusi hərbi-dənizçilik orta məktəbi yaradılmış, burada VIII sinifdən başlayaraq hər il 200 nəfər, IX və X siniflər üçün isə hərəsində 150 nəfər şagird qəbul edilmişdir. Bu məktəblərin fəaliyyəti gənclərin hərbi biliklərlə silahlanmasına, milli zabit ehtiyatının möhkəmlənməsinə xidmət etmişdir (2).

XX əsrin ortalarından etibarən Sovet İttifaqı çərçivəsində Hərbi-Dəniz qüvvələri üçün ixtisaslı kadrların hazırlanması məsələsi strateji əhəmiyyət daşıyırdı. Bu çərçivədə, Xəzər Ali Hərbi-Dəniz Məktəbi (XAHDM) mühüm rol oynamışdır. Məktəb SSRİ Silahlı Qüvvələrinin ehtiyaclarını qarşılayan kompleks bir təhsil müəssisəsi kimi formalaşmış, elmi-texniki və döyüş hazırlığı sahələrində önəmli nailiyyətlər əldə etmişdir. XAHDM

1943-cü ildən etibarən fəaliyyətə başlamış və əsasən 7-9-cu sinifləri əla qiymətlərlə başa vurmuş ümumtəhsil məktəbi məzunları arasından seçilən şagirdləri qəbul etmişdir. Təhsil müddəti əvvəlcə 3 il, daha sonra isə 4 ilə qədər uzadılmışdır. Təhsil proqramları SSRİ Hərbi Dəniz Donanmasının təlim-tərbiyə planlarına uyğun şəkildə tərtib olunmuş, tədris dili isə rus dili olmuşdur. Məktəbdə riyaziyyat, tarix, fizika və kimya kimi fundamental fənlərlə yanaşı, hərbi-dəniz nizamnaməsi, hərbi rəhbərlik, taktika və texniki hazırlıq üzrə kurslar keçirilmişdir. Müxtəlif hərbi-tibb və hərbi mühəndislik fakültələri də tədris prosesinə daxil edilmişdir. 1951-ci ildən etibarən məktəbdə dəniz naviqasiyası, mina-torpedo və artilleriya fakültələri formalaşdırılmışdır. XAHDM məzunları döyüş şəraitində tətbiq edilə biləcək praktiki bacarıqlara malik olmaq üçün sahə təcrübələrinə cəlb olunurdular. Bu baxımdan, təcrübəli zabitlərin dərs dediyi kurslar və dənizdə təlimlər xüsusi əhəmiyyət kəsb etmişdir. 1944-cü ildən etibarən XAHDM məzunlarının SSRİ-nin müxtəlif hərbi məktəblərinə yönləndirilməsi də məktəbin geniş strateji əhatə dairəsini göstərir. 1952-ci ildəki məlumatlara əsasən, məktəbdə 1500-dən çox şəxsi heyət xidmət etmiş, onlardan bir hissəsi dənizçilik üzrə xüsusi fakültələrdə – naviqasiya, mina-torpedo, artilleriya və s. – təhsil almışdır. 1957-ci ildən sonra tədris sistemi müasir hərbi tələblərə uyğun yenilənmiş və fakültələşmə prosesi sürətlənmişdir.

XAHDM-də tədrislə yanaşı elmi-tədqiqat fəaliyyəti də geniş yer tutmuşdur. Müəllim və müdavimlər tərəfindən müntəzəm olaraq elmi məqalələr yazılmış, diplom və namizədlik dissertasiyaları müdafiə olunmuşdur. Müdavimlərin iştirakı ilə hərbi elmi cəmiyyətlər, tədris metodikası üzrə konfranslar təşkil olunmuş, 1950–60-cı illərdə bu sahədəki fəaliyyət genişlənmişdir. Məktəbin elmi cəmiyyətləri 1957-ci ildə artıq 160-dan çox müdavimi əhatə etmiş, bu dərnəklərdə 180-dən çox mövzu üzrə tədqiqat aparılmışdır. Hazırlanan didaktik vasitələr – maketlər, modellər və imitatörlər – dərs prosesində effektiv şəkildə istifadə olunmuşdur (3, s. 662).

XAHDM-in fəaliyyəti yalnız Azərbaycan üçün deyil, ümumilikdə SSRİ Hərbi-Dəniz Donanmasının zabit ehtiyacının ödənilməsində həlledici rol oynamışdır. 1943–1958-ci illər ərzində məktəb 5 mindən artıq ixtisaslı hərbi-dəniz kadrı hazırlamış, bu kadrlar müharibə illərində və sonrakı dövrdə hərbi donanmanın əsas dayaqlarından biri olmuşdur. 1970–1980-ci illərdə bu məktəbdə ümumilikdə 14 ixtisas üzrə kadr hazırlığı

aparılırdı ki, bunlardan 4-ü Hərbi Dəniz Donanmasının əsas ehtiyaclarını ödəməyə yönəlmişdi. Gəmi şturmanlığı və hidroqrafiya üzrə ixtisaslar üzrə hazırlıq alan zabitlər donanmanın naviqasiya və təhlükəsiz hərəkətinə cavabdeh sahə rəsiləri və gəmi komandirləri kimi fəaliyyət göstərirdilər. Kimyəvi mühafizə sahəsində ixtisaslaşmış kursantlar isə sualtı və suüstü gəmilərdə kimyəvi silahlarla mübarizə, laboratoriya nəzarəti və mühafizə sistemlərinin tətbiqi üzrə mütəxəssis kimi yetişdirilirdi. Eyni zamanda, radioelektron mübarizə və rabitə üzrə təlim keçən kursantlar suüstü və sahil hissələrində informasiya təhlükəsizliyi və əlaqə təminatı funksiyalarını yerinə yetirməyə hazırlanırdı. Artilleriya və torpedo silahları üzrə ixtisaslaşan zabitlər isə döyüş hissələrinin silahlanma təminatı və istifadə üzrə biliklərə yiyələnirdilər. Bu mərhələdə kursantlar həm nəzəri biliklər, həm də praktik bacarıqlarla silahlandırılır, son mərhələdə isə ixtisaslar üzrə təyinatlar verilirdi.

Azərbaycan Respublikasının müstəqillik əldə etməsindən sonra hərbi təhsil sisteminin milli prinsiplər əsasında yenidən qurulması zərurəti meydana çıxdı. 1994-cü ildə Bakı Ali Hərbi Dənizçilik Məktəbinin təsis olunması ilə milli zabit heyətinin hazırlanmasına başlanıldı. İlk buraxılışda 37 kursant ali hərbi təhsilini başa vurmuş və onlardan 15-i Azərbaycan vətəndaşı olmuşdur. Həmin dövrdə ixtisas sahələrinin sayı artırılmış, zabit hazırlığı proqramına gəmi şturmanlığı, gəmi mühəndisliyi, hərbi hidroqrafiya, kimyəvi mühafizə, radioelektron mübarizə və rabitə, hərbi tərcüməçilik, hərbi psixologiya və hərbi iqtisadiyyat sahələri daxil edilmişdir. Kursantlar müvafiq ixtisas üzrə ali təhsilə bərabər biliklər əldə etmiş, dövlət imtahanları nəticəsində 1995–1996-cı illərdə orta qiymət göstəricisi 4.1 bal təşkil etmişdir. Bu, həmin dövr üçün Azərbaycan hərbi təhsil sisteminin keyfiyyət göstəriciləri baxımından əhəmiyyətli bir göstərici idi (2).

1996-cı ildən etibarən hərbi-dəniz zabitlərinin hazırlanmasında yeni, dörd pilləli sistemə keçilmişdir. Bu model beynəlxalq hərbi təhsil standartlarına uyğunlaşdırılaraq, birinci pillədə ümumi hərbi hazırlıq və nəzəri biliklərin tədrisini, ikinci pillədə isə konkret ixtisaslaşma sahələrinə yönəlik fənlərin tədrisini nəzərdə tuturdu. Üçüncü pillə müvafiq zabit ixtisası üzrə 10 aylıq xüsusi kursları əhatə edirdi. Dördüncü pillə isə daha çox elmi-nəzəri təhlil və strateji komandanlıq biliklərinə əsaslanan hərbi-dəniz

akademiyası səviyyəsində təhsil idi ki, bu da zabitlərin beynəlxalq hərbi əməliyyatlarda iştirak və planlaşdırma qabiliyyətlərini artırırdı. Bu modelin tətbiqi ilə Azərbaycan Hərbi Dəniz Qüvvələrinin zabit heyətinin keyfiyyət göstəriciləri nəzərəçarpacaq dərəcədə yüksəlmişdir.

1998-ci ildən etibarən BAHDM-də ixtisaslaşdırılmış qısa müddətli zabit kursları, 2004-cü ildən isə artıq müstəqil şəkildə aparılan leytenant hazırlığı kursları təşkil olunmağa başlanmışdır. 2008-ci ilə qədər bu istiqamətdə ümumilikdə 15 ixtisas üzrə 194 zabit hazırlanmışdır. Bundan əlavə, müxtəlif təlim kurslarında 140 leytenant iştirak etmişdir. Bu zabitlər Xəzər hövzəsi və daha geniş beynəlxalq dəniz əməliyyatları çərçivəsində fəaliyyət göstərə biləcək bilik və bacarıqlara yiyələnmişlər (2). Tədris proqramlarında beynəlxalq dəniz hüququ, dənizdə axtarış və xilasetmə əməliyyatları, elektron müharibə, mina əleyhinə tədbirlər və strateji planlaşdırma modulları öz əksini tapmışdır. Eyni zamanda, zabitlərin psixoloji hazırlığı, dil bilikləri və diplomatik münasibətlərin qurulması üzrə bacarıqları da təkmilləşdirilmişdir. Nəticə etibarilə, Azərbaycan hərbi-dəniz zabit hazırlığı sistemi keçmiş sovet modelindən ayrılaraq, müstəqil, çevik və beynəlxalq standartlara cavab verən akademik baza üzərində formalaşmışdır. Bu proses təkcə hərbi təhsil sahəsində deyil, ümumilikdə ölkənin milli təhlükəsizlik strategiyasında əhəmiyyətli dönüş nöqtələrindən birini təşkil edir. Hazırda Azərbaycanın Hərbi Dəniz Qüvvələri regional təhlükəsizlik sistemində fəal iştirak etməyə qadir yüksək ixtisaslı zabit heyəti ilə təchiz olunmuşdur və bu istiqamətdə davam edən islahatlar ölkənin müdafiə qabiliyyətinin daha da gücləndirilməsinə yönəlib.

Azərbaycan Respublikasında ali hərbi təhsil sistemi müasir dövrdə yalnız kadr hazırlığı istiqamətində deyil, həm də strateji təhlükəsizlik və milli hərbi intellektin formalaşması baxımından mühüm əhəmiyyətə malikdir. Müstəqillik dövründə bu sistemin təşkili və məzmun strukturunda aparılan islahatlar, eləcə də NATO ilə inteqrasiya prosesləri ali hərbi təhsil müəssisələrinin tədris və tərbiyə mexanizmlərinin yeni tələblərə uyğun şəkildə yenidən qurulmasını zəruri etmişdir. Bu baxımdan, ali hərbi təhsil müəssisələrinin tədris proqramları kompleks və modul əsaslı modelə keçmiş, fənn strukturlaşdırması və pedaqoji metodlar sistemli şəkildə təkmilləşdirilmişdir.

Müasir Azərbaycan hərbi təhsil sistemində tədris proqramları tematik və funksional prinsip üzrə bölünür. Tədris kursları ümumi-hərbi, ixtisaslaşdırılmış texniki, idarəetmə və liderlik, beynəlxalq hüquq və diplomatiya, eləcə də fundamental elmi və sosial fənləri əhatə edir. Ümumi-hərbi və taktiki fənlər çərçivəsində kursantlara müharibə nəzəriyyəsi, taktik planlaşdırma, hərbi logistika və sahə naviqasiyası üzrə biliklər verilir. Texniki ixtisaslaşma fənləri çərçivəsində isə zirehli texnika, hava hücumundan müdafiə sistemləri, dəniz naviqasiyası, elektron mübarizə və hərbi kəşfiyyat modulları tətbiq olunur. Eyni zamanda, idarəetmə və komandanlıq fənləri – liderlik psixologiyası, stres şəraitində qərarvermə, etika və komanda idarəsi – kursantlarda analitik və emosional bacarıqların inkişafını hədəfləyir. Beynəlxalq hüquq, NATO standartları, regional hərbi-siyasi münasibətlər və hərbi diplomatiya üzrə fənlər isə zabitlərin çoxşaxəli hərbi biliklərə sahib olmasını təmin edir. Bu struktur çərçivəsində fundamental elmi və humanitar fənlərin – hərbi tarix, strateji təhlil, xarici dillər, hərbi jurnalistika – tədrisi isə şəxsi inkişaf və beynəlxalq təmsilçilik baxımından vacib bilik və bacarıqlar formalaşdırır (5).

Tədris prosesinin təşkilində müasir pedaqoji yanaşmalar və interaktiv metodlar tətbiq olunur. Ənənəvi mühazirə üsulları ilə yanaşı, fəal təlim texnologiyalarına – problem əsaslı öyrənmə, qrup müzakirələri, senari analizləri və stolüstü taktiki təlimlər – üstünlük verilir. Kursantların təlim fəaliyyətində real əməliyyat senariləri əsasında simulyasiya texnologiyalarından istifadə olunur. Bu isə nəzəri biliklərin praktik fəaliyyətə inteqrasiyasını təmin etməklə yanaşı, qərarvermə və vəziyyətin qiymətləndirilməsi bacarıqlarını inkişaf etdirir.

Pedoqoji proses həm fərdi öyrənmə, həm də qrup şəklində əməkdaşlıq prinsipi əsasında qurulur ki, bu da komandada işləmə və liderlik vərdişlərinin formalaşmasına xidmət edir. Fənlərin tədrisi zamanı müasir hərbi təlim-tədris bazasından – o cümlədən elektron lövhələr, multimedia platformaları və rəqəmsal resurslardan – geniş istifadə olunur. Eyni zamanda, təlimin sahə komponenti də gücləndirilmişdir: kursantlar illik tədris dövründə bir neçə dəfə sahə poliqonlarında praktiki təlimlərə cəlb edilir.

Qiymətləndirmə sistemi isə mərhələli və çoxşaxəli quruluşa malikdir. Formativ qiymətləndirmə üsulları vasitəsilə kursantların gündəlik dərs fəaliyyətləri izlənilir, yazılı

və şifahi yoxlamalarla davamlı inkişaf səviyyələri müəyyən olunur. Modulların sonunda summativ qiymətləndirmə tətbiq edilərək testlər, taktiki layihə təqdimatları və analitik hesabatlar vasitəsilə yekun biliklər ölçülür. Bununla yanaşı, zabit hazırlığında psixoloji hazırlıq və fiziki dözümlülük də qiymətləndirmə sisteminə daxil edildiyi üçün ümumi nəticə təkcə nəzəri deyil, həm də praktiki və şəxsiyyətə dair göstəricilərlə formalaşır. Müasir yanaşmalardan biri kimi kompetensiyaya əsaslanan qiymətləndirmə modeli tətbiq olunur ki, burada kursantın strateji təfəkkür, stressə dözümlülük, liderlik qabiliyyəti və etik davranışı ayrıca meyarlar əsasında ölçülür.

## NƏTİCƏ

Azərbaycanda ali hərbi təhsil sisteminin tədris proqramları və pedaqoji yanaşmaları çağdaş hərbi təhdidlərə cavab verə biləcək, çoxşaxəli, analitik və texniki cəhətdən hazırlıqlı zabitlərin formalaşmasına xidmət edir. Bu sistem özündə həm milli təhlükəsizlik maraqlarını qorumağa, həm də beynəlxalq hərbi əməkdaşlıq sisteminə inteqrasiya olunmağa yönəlmiş rasional və məqsədyönlü struktur daşıyır. Əldə edilmiş təcrübə göstərir ki, müasir təlim və qiymətləndirmə texnologiyalarının tətbiqi ali hərbi təhsilin keyfiyyət göstəricilərini artırmaqla yanaşı, zabitlərin qərarvermə və idarəetmə bacarıqlarını da keyfiyyətcə yeni mərhələyə yüksəltməkdədir. Azərbaycanda ali hərbi təhsilin formalaşması XX əsrin əvvəllərindən başlayaraq müxtəlif mərhələlərdə dövlətin ordu quruculuğu siyasəti ilə sıx bağlı şəkildə inkişaf etmişdir. Müstəqillik dövründə isə bu ənənə müasir hərbi təhsil sistemi ilə davam etdirilərək Azərbaycan Silahlı Qüvvələrinin peşəkar kadr təminatını yüksək səviyyədə təmin edir.

## ƏDƏBİYYAT SİYAHISI


1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. I cild. Bakı: "Lider". 2004. 440 səh.
2. Əliyev N. Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi-Donanmanın xidmətində 70. http://web2.anl.az:81/read/page.php?bibid=vtls000099431
3. Əliyev N. Azərbaycanın hərb tarixi: ən qədim dövrdən XX əsrin əvvəllərinə qədər: monoqrafiya / N. A. Əliyev, S. Ə. Əhmədov, N. Əmirbəyova. Milli

Müdafiə Universiteti, Hərbi-Elmi Tədqiqat İnstitutu.- Bakı: Afpoliqraf, 2024.- 880 s.
4. Əliyev N. Azərbaycanın hərbi tarixi. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası. I hissə: Azərbaycanda qədim dövrdə hərbi tarixi hadisələr.- Bakı, 2016.- 144 s.
5. https://mod.gov.az/az/azerbaycan-ordusunun-herbi-elm-ve-tehsil-sistemi-326/
6. Süleymanov M. Azərbaycan Xalq Cümhuriyyətinin hərb tarixi: II cild. Firuzan. - 2014. -694 s
7. Süleymanov M. Azərbaycanda hərbi təhsilin əsası 101 il əvvəl qoyulub. Azərbaycan ordusu. - 2019.- 16 oktyabr. - № 80.

## ABSTRACT

### PEDAGOGICAL ASPECTS OF THE DEVELOPMENT OF HIGHER MILITARY EDUCATION INSTITUTIONS IN AZERBAIJAN

**Mujkan Mammadzada**

The system of higher military education in Azerbaijan constitutes one of the key pillars of the national security strategy. The preparation of professional officer personnel with high intellectual capacity and strategic thinking skills requires not only technical and tactical training but also a systematically structured educational model grounded in modern pedagogical approaches. Since the late 20th century, significant reforms have been implemented in the field of military education in Azerbaijan. These reforms have gradually replaced the centralized and standardized system inherited from the Soviet era with a more nationally oriented and flexible pedagogical framework.

The purpose of this article is to analyze the developmental stages of higher military education institutions in Azerbaijan from a pedagogical perspective. It evaluates the evolution of teaching methods, curriculum reforms, and leadership training in the context of the modern condition of military education. In addition, special emphasis is placed on the integration of international experience, particularly from NATO and Türkiye, into the local military education system.

**Keywords**: *higher military education, pedagogical reforms, officer training, modern training methods, NATO standards*

## АННОТАЦИЯ

# ПЕДАГОГИЧЕСКИЕ АСПЕКТЫ РАЗВИТИЯ ВЫСШИХ ВОЕННЫХ УЧЕБНЫХ ЗАВЕДЕНИЙ В АЗЕРБАЙДЖАНЕ

**Мужкан Мамедзаде**

Система высшего военного образования в Азербайджане является одним из ключевых столпов национальной стратегии безопасности. Подготовка профессиональных офицерских кадров с высоким интеллектуальным потенциалом и стратегическим мышлением возможна не только посредством технической и тактической подготовки, но и благодаря системно выстроенной образовательной модели, основанной на современных педагогических подходах. Начиная с конца XX века, в Азербайджане были реализованы важные реформы в области военного образования. Постепенно централизованная и стандартизированная система, унаследованная от советского периода, уступила место национально ориентированной и гибкой педагогической структуре.

Цель данной статьи — проанализировать этапы развития высших военных учебных заведений Азербайджана с педагогической точки зрения. Рассматриваются изменения в методах преподавания, реформы учебных программ, а также внедрение курсов по лидерству в контексте современного состояния военного образования. Отдельное внимание уделяется интеграции международного опыта, особенно сотрудничеству с НАТО и Турцией, в национальную систему военного образования.

**Ключевые слова**: *высшее военное образование, педагогические реформы, подготовка офицеров, современные методы обучения, стандарты НАТО*